# Ahıllara qayğı hamının borcudur

Yaşadığımız cəmiyyət hamı üçündür. Gənclər, orta nəslin nümayəndələri cəmiyyətdə gedən inkişaf proseslərində fəal iştirak etməlidirlər. Yaşlıların həyat təcrübəsindən bilik və bacarıqlarından bəhrələnmək isə nəsillər arasında körpü yaratmaq baxımından çox zəruridir.

BMT-nin inkişaf proqramında son illər ərzində ahıllar problemi geniş yer tutur. 2002-ci ilin aprelində İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin ahıllar üzrə II Ümumdünya məclisinin keçirilməsi də buna misaldır. Bu Ümumdünya tədbirində belə bir fikir səsləndi ki, yaşlılar da cəmiyyətin bərabər hüquqlu vətəndaşlarıdır, onlara hörmət göstərmək yüksək insani keyfiyyətdir.

İnsanın qocalıq dövründə heç nəyə qadir olmadığını söyləmək səhv olardı. Lap qədim zamanlardan ağsaqqal, ahıl insanlar ən hörmətli, müdrik adamlar hesab olunurlar. Onlara cavanlar da, böyüklər də hörmətlə yanaşır, fikirləri ilə hesablaşırlar. Qocaların sərvəti onların həyat təcrübəsidir. Onlara qulaq asıb, dediklərinə əməl etməklə bu sərvətə sahib olmaq mümkündür.

BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qəbul edilmiş, həmçinin 1999-cu il Beynəlxalq Ahıllar ili elan olunmuşdur.

Bu məsələyə respublikamızda da ciddi diqqət yetirilir. 2001-ci il iyunun 22-də «Ahıllara sosial xidmət haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl sayılır.

1993-cü ildən başlayaraq hər il oktyabr ayının 1-i respublikamızda «Beynəlxalq Ahıllar Günü» kimi qeyd olunur. Həmin günün keçirilməsində məqsəd ahıl vətəndaşların sosial problemləri ilə tanış olmaq, onların ehtiyaclarını müəyyənləşdirərək həlli istiqamətində dövlət və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir.

Beynəlxalq Ahıllar Günü ərəfəsində rayon Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsinin əməkdaşları yaşayış məntəqələrində ahıl vətəndaşların ehtiyaclarını öyrənir, müxtəlif xeyriyyə və mədəni-kütləvi tədbirlər həyata keçirirlər. Hazırda şöbənin sosial xidmət sektoru 60 nəfər tənha ahıl vətəndaşa evlərdə sosial xidmət göstərir. Bu vətəndaşlara Qəbələ şəhəri, Böyük Əmili, Mıxlıqovaq, Həmzəli, Xırxatala, Nohurqışlaq, Töntül və Vəndam qəsəbəsi üzrə 7 nəfər sosial işçi xidmət edir. Sosial işçilər ən azı həftədə 2 dəfə ahılların evlərində olur, onlara ev işlərində köməklik göstərir, qayğıları ilə maraqlanırlar. Əvvəlki illərdə olduğu kimi, bu il də Ahıllar Günü münasibətilə əməkdaşlarımız tənha qocaların evlərində olacaq, onların bayramlarını təbrik edəcək, məişət xidməti göstərəcəklər.

Bir məsələni də qeyd etsəm yerinə düşər. Tənha və əlil insanlara qayğı göstərmək təkcə biz sosial sahənin işçilərinin deyil, eyni zamanda hər bir təşkilatın, hər bir vətəndaşın sosial qayğısı olmalıdır. Yerli icra nümayəndəlikləri, bələdiyyələr, ictimai təşkilatlar tənha ahılların və əlillərin problemlərinin həll edilməsində yaxın köməkçilərimiz olmalıdırlar.

**Nərgiz ABDURƏHİMOVA,**
**DSMF Qəbələ Rayon Şöbəsinin sosial-xidmət şöbəsinin müdiri.**

# Sağlamlıq imkanları məhdud uşaqların bir istirahət günü

Müstəqil dövlətimiz tərəfindən şəhər və rayonlarda gənclərin asudə vaxtının səmərəli təşkili məsələlrinə daim diqqət verilir. Gənclər evlərinin, idman, mədəniyyət, incəsənət müəssisələrinin, uşaq və ailələrə dəstək mərkəzlərinin yaradılması istiqamətində qəbul edilən dövlət proqramları deyilənlərə əyani misaldır. Rayonumuzda yaradılan uşaq və ailələrə dəstək mərkəzindən bəhrələnən uşaqlara göstərilən qayğı da bu proqramın icrasının nəticəsidir.

Bu günlərdə uşaq və ailələrə dəstək mərkəzi tərəfindən sağlamlıq imkanları məhdud olan uşaqların Heydər Əliyev Mərkəzinə, tarix-diyarşünaslıq muzeyinə, «Qəbələnd», «Xanlar» istirahət mərkəzlərinə ekskursiyaları təşkil olunmuşdu. Uşaqların istirahətinin təşkilinə «Qəbələnd» və «Xanlar» istirahət mərkəzləri, avtovağzalın rəhbərliyi yaxından köməklik göstərmişdir.

Uşaqlar rayon tarix-diyarşünaslıq muzeyindən başlanan ekskursiyadan sonra avtobusla «Qəbələnd» istirahət mərkəzinə gəldilər. Burada müxtəlif attraksionlarda onlar xeyli əyləndilər. Nahar fasiləsi «Xanlar» istirahət mərkəzində oldu. Nahardan sonra «Rus meşəsi» adlanan ərazidə istirahət saatları davam etdi və uşaqlar üçün atla gəzinti təşkil olundu.

«Rayonumuzun tarixini öyrənək, təbiəti seyr edək» adlı tədbir də maraqlı oldu. Tədbirdə uşaqlara rayonumuzun tarixi, görkəmli şəxsiyyətləri, çoğrafı quruluşu, təbiəti haqqında geniş məlumatlar verildi. Tədbir musiqi və əyləncə proqramları ilə davam etdirildi.

**Sevil MƏMMƏDOVA,**
**rayon uşaq və ailələrə dəstək mərkəzinin əməkdaşı.**

## Təbrik edirik!

Bağırov Fateh Tural oğlunu və Məmmədov Rəfael Pərvin oğlunu Nicat Apayev adına Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin birinci sinfinə qədəm qoyması münasibətilə valideynləri və yaxınları səmimi qəlbdən təbrik edir, təhsil alacaqları illərdə onlara uğurlar, müvəffəqiyyətlər və ən əsası gələcəkdə vətəninə, xalqına layiqli övladlar kimi yetişmələrini arzu edirlər!



## ELAN

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 20 oktyabr 2009-ci il tarixdə «ASPİ AQRO Məhdud Məsuliyyətli Cəmiyyətə verilmiş aşağıdakı sənədlər itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış: seriya MH № 0009263, reyestr nömrəsi 406013005513, Torpaq sahəsinin planı və ölçüsü № AA 002806,

Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış: seriya MH 0009264 reyestr № 406013005514, Torpaq sahəsinin planı və ölçüsü № AA 002804.

Daşınmaz Əmlakın Reyestrindən çıxarış: seriya MH № 0009265, reyestr № 406013005515, Torpaq sahəsinin planı və ölcüsü № AA 002805.

Daşınmaz Əmlakın Dövlət Reyestrindn çıxarış: seriya MH 0009268, reyestr № 406013005519, Torpaq sahəsinin planı və ölçüsü № AA 002802.

Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış: seriya MH № 0009269, reyestr № 406013002614, Torpaq sahəsminin planı və ölçüsü № AA 002803.

Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış: seriya MH № 0009270, reyestr № 406013002615 Torpaq sahəsinin planı və ölçüsü № AA 002795.

Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış: seriya MH № 0009271, reyestr № si 406013002616 Torpaq sahəsinin planı və ölçüsü № AA 002799.

Daşınmaz Əmdakın Dövlət Reyestrindən çızxarış: seriya MH № 0009272, reyestr № 406013003857, Torpaq sahəsinin planı və ölçüsü № AA 002796.

Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış: seriya MH № 0009273, reyestr № 406013003116, Torpaq sahəsinin planı və ölçüsü № AA 002794.

Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış: seriya MH № 0009274, reyestr № 406013002620, Torpaq sahəsinin planı və ölçüsü № AA 002800

Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış: seriya MH № 0009277, reyestr № 406013005521, Torpaq sahəsinin planı və ölçüsü № AA 002814.

## ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 noyabr 1997-ci il tarixdə 26 saylı qərarla Daşca kənd sakini Hümbətov Zakir Sədulla oğluna verilmiş JN-049C nömrəli (kodu 40608028) torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 noyabr 1997-ci il tarixdə 26 saylı qərarla Daşca kənd sakini İsmayılov Namizəd Yusif oğlunun və ailə üzvlərinin adına verilmiş JN-057 F nömrəli (kodu 40608028) Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatının əməkdaşları rayon kənd təsərrüfatı idarəsinin rəisi **Rahib Əhmədova,** atası

**SƏHRAB ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Qəbələ» qəzetinin kollektivi rayon kənd təsərrüfatı idarəsinin rəisi **Rahib Əhmədova,** atası

**SƏHRAB ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

DİXİHİ-nin Qəbələ Rayon Komitəsinin sədri Fərman Hacıyev rayon kənd təsərrüfatı idarəsinin rəisi **Rahib Əhmədova** və **yaxın qohumlarına,** əzizləri

**SƏHRAB ƏHMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Redaktor
V. A. Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 1800.
Oxucu məktubları geri qaytarılmır.